

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 3 (21.413)

7 yanvar 2016-cı il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Ötən il muxtar respublika iqtisadiyyatının sürətli inkişafı təmin edilmişdir

***2015-ci il sosial-iqtisadi inkişaf baxımından muxtar respublikamızın tarixində mühüm mərhələ təşkil edir. Belə ki, adıçəkilən dövrdə daxili imkanlardan və ehtiyat mənbələrindən səmərəli istifadə olunmuş, inkişaf konsepsiyası iqtisadi və sosial müstəvidə yüksələn xətlə davam etdirilmiş, iqtisadiyyatda müsbət meyillər daha da möhkəmləndirilmişdir.***



Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyindən aldığımız məlumata görə, bu dövrdə iqtisadi və sosial sahədə bütün makroiqtisadi göstəricilərin yüksəlişi təmin edilmiş, ümumi daxili məhsulun həcmi 2 milyard 465 milyon manatdan çox olmuşdur. Müxtəlif istehsal sahələrində qazanılan uğurlara həyata keçirilən islahatlar nəticəsində nail olunmuşdur. Bu sırada sənaye sahəsi xüsusi yer tutur. Bəhs olunan dövrdə mövcud sənaye müəssisələrinin fəaliyyətinin bərpası və yenidən qurulması, təbii ehtiyatlardan və əmək resurslarından istifadə əsasında yeni müəssisələrin yaradılması nəticəsində 917 milyon manata yaxın sənaye məhsulu istehsal edilmişdir.

Mövcud resurslardan səmərəli istifadə etməklə hədəflərə yönələn məqsədli dövlət proqramlarının uğurlu icrası yüksək texnologiyalar əsasında mebel, maşınqayırma, metallurgiya, kimya, mədənçıxarma, yüngül və yeyinti sənayesi, kənd təsərrüfatı təyinatlı 852 istehsal və xidmət sahəsinin yaradılmasına imkan vermişdir.

Bu dövrdə sahibkarlara və sahibkarlıq subyektlərinə göstərilən qayğı davam etdirilmiş, sahibkarların güzəştli kreditlərlə maliyyə təminatının yaxşılaşdırılması da diqqətdə saxlanılmışdır. Belə ki, 2015-ci ildə muxtar respublikanın bank strukturları və kredit təşkilatları tərəfindən sahibkarlara kreditlərin verilməsi davam etdirilmiş, Sahibkarlığa Kömək Fondu tərəfindən 25 layihənin maliyyələşdirilməsinə güzəştli şərtlərlə 10 milyon 733 min 200 manat həcmində kreditlər verilmişdir. Bu sahədə həyata keçirilən tədbirlər ümumi daxili məhsul istehsalında özəl bölmənin payının 87 faizə çatması ilə nəticələnmişdir.

Məlumatda bildirilir ki, bu dövrdə muxtar respublikada təbii resurslardan səmərəli istifadə, ərzaq təhlükəsizliyinin təmin olunması, ixrac potensialının artırılması və yeni iş yerlərinin açılması istiqamətində tədbirlər davam etdirilmiş, fəaliyyəti bərpa edilmiş və ya yeni qurulmuş müəssisələrdə istehsal olunan məhsulların növü 361-ə çatmış, 343 növdə məhsula olan tələbatın tamamilə yerli istehsal hesabına ödənilməsi təmin edilmişdir.

2015-ci ildə kənd təsərrüfatının inkişafı da diqqət mərkəzində saxlanılmış, həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində kənd təsərrüfatının ümumi məhsulu 403 milyon manat olmuşdur. Belə ki, bəhs olunan dövrdə kənd təsərrüfatı bitkilərinin əkin sahəsi 61,4 min hektara, taxıl istehsalı 106,3 min tona, kartof istehsalı 45 min tona, meyvə və giləmeyvə istehsalı 66,5 min tona, tərəvəz məhsulları istehsalı 82 min tona, bostan məhsulları istehsalı 38 min tona çatmışdır.

Əhalinin ərzaq məhsullarına olan tələbatının ilboyu ödənilməsində soyuducu anbarların, istixana komplekslərinin mühüm rolu var. Bunun üçün yerli investisiyalar əsasında soyuducu anbarların ümumi tutumu 12 min 730 tona, tərəvəz məhsullarının yetişdirilməsi üçün istixana komplekslərinin ümumi sahəsi 113 min 892 kvadratmetrə, taxıl emalı müəssisələrinin sayı 17-yə, ətlik və yumurtalıq istiqamətində quşçuluq təsərrüfatlarının sayı 64-ə çatdırılmışdır.

## Muxtar respublika əhalisi sağlam ərzaq məhsulları ilə təmin olunur

***Ərzaq təhlükəsizliyinin təmin olunması bu gün dünyanı düşündürən başlıca məsələdir. Və bu problemin həlli istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Ölkəmizdə, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da ərzaq təhlükəsizliyinin təmin olunması üçün görülən işlər öz bəhrəsini verməkdədir.***

Qeyd olunmalıdır ki, bu sahədə digər ərzaq məhsulları ilə yanaşı, heyvandarlıq məhsullarının istehsalı da mühüm əhəmiyyətə malikdir. Daxili bazarın yüksəkkeyfiyyətli ət və süd məhsulları ilə təmin olunması və sağlam təsərrüfatların qorunması muxtar respublikamızda ötən ildə də ən zəruri sahə kimi diqqət mərkəzində saxlanılmış, Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidməti, onun şəhər və rayon baytarlıq idarələri tərəfindən regionun bütün yaşayış məntəqələrində əhaliyə məxsus mal-qara, ev quşları və digər kənd təsərrüfatı heyvanları arasında xəstəliklərə qarşı diaqnostik, profilaktik və müalicəvi tədbirlər həyata keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətindən bildiriblər ki, muxtar respublika təsərrüfatlarındakı iribuynuzlu və xırdabuynuzlu heyvanlardan qan nümunələri götürülərək baytarlıq laboratoriyalarında seroloji müayinədən keçirilmiş, epididimit xəstəliyinə görə diaqnostik müayinə aparılmış, xəstəlik aşkar olunmamışdır. Həmçinin mal-qara və ev quşlarının parazitlərlə yoluxma dərəcəsini müəyyən etmək üçün laboratoriyalarda elmitoloji analizlər aparılmış, əhalini sağlam heyvandarlıq məhsulları ilə təmin etmək üçün baytar-sanitar ekspertiza laboratoriyalarında və bakterioloji laboratoriyalarda infeksion xəstəliklərə görə müayinələr aparılmışdır.

Profilaktik məqsədlə kənd təsərrüfatı heyvanları arasında qarayara, dabaq, emkar, bradzot xəstəliklərinə qarşı iribuynuzlu və xırdabuynuzlu heyvanlarda, taun "H" xəstəliyinə qarşı quşlarda peyvəndləmə tədbirləri görülmüş və bu istiqamətdə işlər davam etdirilir. Bütün yaşayış məntəqələrində dezinfeksiya tədbirləri həyata keçirilmiş, baytarlıq xidmətinə dair sahibkarlarla maarifləndirici söhbətlər təşkil edilmişdir. Dünyanın bəzi ölkələrində yayılan xəstəliklərin muxtar respublikamıza daxil olmasının qarşısının alınması diqqət mərkəzində saxlanılmış və regionda belə xəstəliklər qeydə alınmamışdır.

Həyata keçirilən tədbirlərin, monitorinqlərin nəticələri belə deməyə tam əsas verir ki, həmin xəstəliklərin muxtar respublikada yayılma ehtimalı yoxdur.

## 2015-ci il ərzində dövlət satınalmaları sahəsində fəaliyyət şəffaflıq şəraitində keçmişdir

2015-ci il ərzində muxtar respublikanın müəssisə və təşkilatları tərəfindən dövlət vəsaiti hesabına malların (işlərin, xidmətlərin) satın alınması zamanı qanunvericiliyin tələblərinin gözlənilməsi istiqamətində bir sıra tədbirlər görülmüş, işdə şəffaflıq prinsipi qorunmuş, müsabiqələrin qanunvericiliyə uyğun olaraq ədalətli rəqabət şəraitində keçirilməsinə nəzarət gücləndirilmişdir.

Muxtar respublikada sosial-iqtisadi sahədə davamlı inkişafın təmin olunması ümumi daxili məhsulun həcminin də artmasına səbəb olmuşdur. Həyata keçirilən səmərəli iqtisadi siyasətin nəticəsidir ki, özəl sektorun ümumi daxili məhsuldakı payı ildən-ilə artır. Muxtar respublikada sahibkarlığa göstərilən diqqət və qayğı dövlət satınalmaları üzrə keçirilən müsabiqələrdə iddiaçılar arasında yerli məhsul istehsalçılarının daha fəal iştirakını təmin etmişdir. Belə ki, satın alınan ərzaq, bərk və yumşaq inventarların və sair məhsulların böyük hissəsi yerli istehsal hesabına ödənilir, aparılan tikinti, təmir-bərpa işlərinin əksər hissəsi yerli şirkətlər tərəfindən icra olunur.

2015-ci il ərzində muxtar respublikada keçirilmiş 101 satınalma müsabiqəsi nəticəsində 1 milyon 216 min 595 manat dövlət vəsaitinə qənaət olunmuşdur.

## Nəqliyyat-yol kompleksi qış mövsümünü uğurla başa vuracaq

***Qış mövsümündə muxtar respublika sakinlərini və şəhərimizə gələn qonaqları fasiləsiz və təhlükəsiz ictimai nəqliyyatla təmin etmək qarşıda duran ən vacib məsələlər sırasındadır. Hər il bu istiqamətdə məqsədyönlü tədbirlər həyata keçirilir.***





2015-2016-cı illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar ötən il avqust ayının 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilmiş müşavirədə bununla bağlı Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinə də tapşırıqlar verilmişdir. Nazirliyin kollektivi bu istiqamətdə işlərini günün tələbləri səviyyəsində qurmuş, adıçəkilən müşavirədə qarşıya qoyulan vəzifələrin icrasını təmin etmək üçün var-qüvvə ilə çalışmışdır. Bunun nəticəsidir ki, qış mövsümündə ictimai nəqliyyat xidmətinin göstərilməsində heç bir problem yoxdur.

Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyindən aldığımız məlumatda daha sonra bildirilir ki, qış mövsümündə əhalinin fasiləsiz və təhlükəsiz nəqliyyatla təmin edilməsi, nəqliyyat-yol kompleksində baş verə biləcək hər hansı çatışmazlığın vaxtında aradan qaldırılması üçün nazirlik, habelə onun tabeliyində və strukturunda olan təşkilatlar tərəfindən kompleks tədbirlər həyata keçirilməkdədir. Belə ki, Naxçıvan şəhər, Şərur, Culfa, Şahbuz və Ordubad avtovağzallarında, habelə Naxçıvan Avtobus Parkında sərnişindaşıma ilə məşğul olan avtobus, mikroavtobus və taksilərdə daxili qızdırıcı sistemlər işlək vəziyyətə gətirilmiş və avtonəqliyyat vasitələrinin köhnəlmiş şinləri yeniləri ilə əvəz edilmişdir.

Bu gün muxtar respublikamızda müxtəlif tutumlu avtobuslarla sərnişinlərə ictimai nəqliyyat xidməti göstərilir ki, onların da fəaliyyətinə müntəzəm olaraq ciddi nəzarət olunur. Sürücülərin sərnişinlərlə rəftarı, nəqliyyat vasitələrinin texniki və sanitar, gigiyenik vəziyyəti daim nəzarətdə saxlanılır. Sərnişindaşıma ilə məşğul olan bütün avtonəqliyyat vasitələrinin ötən ilin oktyabr-noyabr aylarında texniki müayinədən keçirilməsi işi başa çatdırılmışdır.

Dekabr ayının əvvəllərində keçirilən və sərnişindaşıma ilə məşğul olan sahibkarlar və avtonəqliyyat vasitələri sürücülərinin dəvət olunduqları ikigünlük seminar-müşavirədə qış mövsümündə qarşıya çıxacaq problemlər müzakirə olunmuşdur.

Qarlı və şaxtalı havalarda nəqliyyata olan tələbatın artması nəzərə alınaraq "Naxavtoyol" Dövlət Şirkətində qış mövsümündə işləyəcək avtomaşın və yol texnikasının saz vəziyyətə gətirilməsi işlərinə də diqqət artırılmış, regionumuzda mövcud olan 1473 kilometr respublika və yerli əhəmiyyətli avtomobil yollarına nəzarət artırılmış, yollarda hərəkətin intensivliyinin və təhlükəsizliyinin təmin edilməsi ilə bağlı bir sıra işlər görülmüşdür. Belə ki, şirkətin balansında olan 12 ədəd avtoqreyder, 29 ədəd özüyükünüboşaldan avtomaşın, 8 ədəd buldozer, 1 ədəd qumsəpən avtomaşın, 3 ədəd ekskavator, 5 ədəd avtoyükləyici və 1 ədəd qartəmizləyən mexanizm tam işlək vəziyyətdədir. Magistral yollarda işləyəcək avtoqreyderlərə asfalt-beton örtüyünün dağılmaması üçün rezin bıçaqlar tədarük edilmiş, avtomobil yollarının buzdan təmizlənməsində mühüm rol oynayan qum tədarükü diqqət mərkəzində saxlanılmış, tədarük olunan 1000 kubmetrdən artıq qumun yerlərə paylanması işi başa çatdırılmışdır.

Görülən işlərin nəticəsidir ki, muxtar respublikamıza yağan qar və kəskin soyuq hava şəraiti avtonəqliyyat xidmətinin ahəngdar işini poza bilməmişdir. Belə ki, ucqar dağ kəndlərinə gedən yollar da tez bir zamanda qardan təmizlənmiş və istifadə olunacaq vəziyyətə gətirilərək marşrutların fəaliyyəti təmin edilmişdir.

Həyata keçirilən tədbirlər onu deməyə əsas verir ki, muxtar respublikamızın nəqliyyat-yol kompleksi qış mövsümünü uğurla başa vuracaq.

**Xəbərlər şöbəsi**

*Dövlət proqramı necə icra olunub?*

# Muxtar respublikada əhalinin işlə təminatı sahəsində ardıcıl tədbirlər görülür

***Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində görülən işlərin tərkib hissəsi kimi məşğulluq probleminin həlli mühüm əhəmiyyət kəsb edir. Son illər Naxçıvan Muxtar Respublikasında iqtisadi islahatların əhatə dairəsinin genişlənməsi, istehsal və xidmət sahələrinin fəaliyyətə başlaması yeni iş yerlərinin açılmasına və əhalinin işlə təminatına əsaslı zəmin yaratmışdır.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası muxtar respublikada işaxtaranların səmərəli məşğulluğu üçün əlverişli şərait yaratmış, əmək bazarının tələbinə uyğun peşə hazırlığının təşkilinə, işaxtaran və işsiz vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə geniş imkanlar açmışdır. Dövlət proqramına uyğun olaraq, əmək bazarında tələb və təklifin müəyyənləşdirilməsi üzrə təhlillər aparılmış, əmək bazarının tələbinə uyğun peşə kursları təşkil edilmiş, işaxtaranlar mövcud olan vakansiyalar üzrə işlə təmin edilmiş, sosial cəhətdən həssas əhali qruplarının məşğulluğu diqqət mərkəzində saxlanılmış və nəticədə, muxtar respublikada 6 min 364 yeni iş yeri açılmışdır. Qeyd olunan dövrdə 39 hüquqi şəxs dövlət qeydiyyatına, 5 min 157 fiziki şəxs isə sahibkarlıq uçotuna alınmışdır. Bu dövrdə vaxtaşırı monitorinqlər keçirilmiş və işəgötürənlər tərəfindən vakansiyalar haqqında hesabatların təqdim edilməsinə nəzarət gücləndirilmişdir. Müxtəlif peşə istiqaməti üzrə kadrlara olan tələbatı müəyyənləşdirmək məqsədilə 189-u özəl olmaqla, ümumilikdə, 383 müəssisədə sorğu keçirilmişdir.

Dövlət proqramına uyğun olaraq, muxtar respublikanın əmək bazarında əcnəbi işçiyə olan tələbatın müəyyənləşdirilməsi üçün proqnoz tərtib olunmuş, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə muxtar respublika ərazisində iqtisadi fəaliyyət sahələri üzrə əmək miqrasiyası kvotaları təsdiq edilmişdir. Həmçinin "Naxçıvan Biznes Mərkəzi" MMC-də işəgötürənlərlə görüşlər keçirilmiş, onlara əcnəbi işçilərə olan tələbatın maksimum səviyyədə yerli əmək ehtiyatları hesabına təmin edilməsinin zəruriliyi və əmək bazarının tələbinə uyğun yaradılmış peşə kursları barədə məlumatlar verilmişdir.

Aktiv məşğulluq tədbirləri də dövlət proqramında nəzərdə tutulmuş tələblər əsasında yerinə yetirilmiş, ötən iki il ərzində məşğulluq xidməti orqanlarında qeydiyyatda olan 5 min 537 işaxtaran işlə təmin edilmişdir. Keçirilən əmək yarmarkaları bu baxımdan mühüm rol oynamışdır. Ümumiyyətlə, 2014-2015-ci illərdə keçirilmiş əmək yarmarkaları vasitəsilə 1627 nəfər, o cümlədən təhsil yarmarkalarında 220, səhiyyə yarmarkalarında isə 24 nəfər öz peşə və ixtisaslarına uyğun işlə təmin edilmişdir. Proqramın icrası gənclərin asudə vaxtının səmərəli təşkili və əmək vərdişlərinin möhkəmləndirilməsinə də mühüm töhfələr vermişdir. Belə ki, gənclər tətil günlərində mövsümi və haqqıödənilən ictimai işlərə göndərilmiş, ötən dövrdə 21 tələbə öz ixtisasına uyğun, 18 tələbə isə müvəqqəti xarakterli işlə təmin edilmişdir. Mütəmadi olaraq məşğulluq mərkəzləri tərəfindən muxtar respublikanın ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdlərinə əmək bazarının tələbinə uyğun peşə və ixtisaslar barədə məlumatlar verilmişdir. Ötən iki il ərzində məzunlardan 111-i Naxçıvan Regional Peşə Tədris Mərkəzində peşə kurslarına cəlb edilmişdir ki, onlardan 12-si sağlamlıq imkanları məhdud şəxslərdir. Bütün bunların nəticəsidir ki, son illər muxtar respublikada işsizlik statusu və müavinəti təyin edilməmişdir.

Sahibkarlığın inkişaf etdirilməsi əhalinin məşğulluğuna birbaşa təsir edən amillərdəndir. Buna görə də bəhs olunan dövrdə muxtar respublikada fəaliyyət göstərən banklar və digər kredit təşkilatları tərəfindən kiçik və orta sahibkarlığın inkişafı, yeni iş yerlərinin yaradılması məqsədilə 82 milyon 286 min manat həcmində güzəştli şərtlərlə kredit verilmişdir. Bu dövrdə Sahibkarlığa Kömək Fondu tərəfindən maliyyələşdirilmiş sahələr də daxil olmaqla,



ümumilikdə, 732 yeni iş yeri açılmışdır. Fond tərəfindən maliyyələşdirilmiş digər layihələrin icrası başa çatdıqdan sonra daha 595 yeni iş yerinin açılması nəzərdə tutulmuşdur. Sahibkarlığa yeni başlamaq istəyən şəxslər üçün müvafiq kurslar keçirilmiş, İqtisadiyyat və Sənaye Nazirliyində yaradılmış "Operativ əlaqə sistemi" vasitəsilə 117 sahibkarlıq subyektinə mütəmadi olaraq məsləhət, informasiya xidmətləri göstərilmişdir. Həmçinin "Naxçıvan Biznes Mərkəzi" MMC-də sahibkarlığa yeni başlamaq istəyən şəxslər və sahibkarlar üçün kurslar təşkil edilmişdir. Muxtar respublikada aparılan geniş quruculuq tədbirləri də yeni iş yerlərinin açılmasına əlverişli şərait yaradır. Qəsəbə və kəndlərdə istifadəyə verilən xidmət mərkəzləri bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Ötən dövrdə gözəllik salonları, bərbərxana və dərzi sexlərində 88 nəfər müvafiq peşələr üzrə işlə təmin edilmişdir.

Əmək bazarının tələbinə müvafiq olaraq, işaxtaranların peşə hazırlığının təşkili də diqqət mərkəzində saxlanılmışdır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Naxçıvan Regional Peşə Tədris Mərkəzində 16 peşə sahəsi üzrə kurslar təşkil edilmiş, peşə kurslarında 796 nəfər iştirak etmişdir. Həmçinin Təhsil Nazirliyinin tabeliyində olan peşə məktəblərində təşkil olunmuş peşə kurslarında 6 min 799 müdavim iştirak etmişdir. Bundan başqa, ötən dövrdə məişət, iaşə, istehsal, ticarət və təhsil sahələrində çalışan işçilər üçün peşə standartlarının tətbiqi məqsədilə 18 seminar keçirilmişdir. Təhsil müəssisələrinin və şadlıq saraylarının xidmət işçiləri üçün "İctimai iaşə obyektlərinin fəaliyyətlərinə dair tələblər" hazırlanmış, xidmət sahələri üzrə peşəkar kadrların hazırlanması məqsədilə Naxçıvan Regional Peşə Tədris Mərkəzində kurslar təşkil edilmişdir.

Bu gün xalq sənətkarlığı sahələrinin dirçəldilməsi bir tərəfdən milli dəyərlərimizin yaşadılmasına, digər tərəfdən isə yeni sənətkarların yetişməsinə və istedadlı gənclərin məşğulluğunun təmin olunmasına xidmət edir. Bu səbəbdən də dövlət proqramının icrası zamanı xalq tətbiqi sənəti növləri üzrə kursların keçirilməsinə diqqət artırılmış, müdavimlərə xalçaçı, misgər və ağac üzərində oyma sənətlərinin sirləri öyrədilmişdir. "Naxçıvan Biznes Mərkəzi" MMC-nin tabeliyində fəaliyyət göstərən "Xalq Yaradıcılığı Emalatxanası"nda ağac üzərində oyma, xalçaçılıq, rəssamlıq və dekorativ-tətbiqi sənət növləri üzrə sahələr fəaliyyətə başlamış, 5 xalçaçı emalatxanada daimi işlə təmin olunmuşdur. Həmçinin emalatxanada sağlamlıq imkanları məhdud 9 nəfər ağac üzərində oyma sənəti üzrə təcrübəyə cəlb olunmuşdur. Bu sahədə həyata keçirilən tədbirlərin davamı olaraq, "Dizayn Holdinq" Şirkətlər İttifaqının və "Gəmiqaya Mebel Fabriki" MMC-nin nəzdində mis



üzərində döymə, ağac üzərində oyma, vitraj və dekorativ-tətbiqi sənət sahələri yaradılmış və mütəmadi kursların keçirilməsinə nail olunmuşdur. Qeyd olunan dövrdə "Naxçıvan Biznes Mərkəzi" MMC tərəfindən 49 fiziki şəxslə əlaqə yaradılaraq sərgi-satış məqsədilə 620 adda rəsm və əl işi qəbul edilmiş, əvvəlki illərdə qəbul edilənlər də daxil olmaqla, 24 min 671 manat dəyərində əl işlərinin satışı həyata keçirilmişdir. Mərkəzin "Xalq Yaradıcılığı Emalatxanası"nda toxunan 8 xalça satışa çıxarılmışdır.

"2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nda sosial cəhətdən həssas əhali qruplarının məşğulluğu üzrə müvafiq tədbirlərin görülməsi də nəzərdə tutulmuşdur. Bu kateqoriyadan olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin dövlət və özəl müəssisələrdə işlə təmin olunması diqqətdə saxlanılmış, sağlamlıq imkanları məhdud 171, hərbi xidmətdən tərxis olunan 102, cəzaçəkmə müəssisəsindən azad edilən 6 nəfər münasib işlə təmin edilmişdir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən aztəminatlı ailələrin, cəzaçəkmə müəssisələrindən azad edilmiş və sosial qayğıya ehtiyacı olan sağlamlıq imkanları məhdud şəxslərin özünüməşğulluqlarının təmin edilməsi məqsədilə Naxçıvan Şəhər Tədris-Ticarət Mərkəzində onlar tərəfindən hazırlanan 23 rəsm, 285 əl işi və 32 xalça satışa çıxarılmışdır. Həmçinin Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda 53 məhdud fiziki imkanlı şəxsin rəsm və əl işlərindən ibarət sərgi-satış müsabiqəsi keçirilmiş, müsabiqəyə 34 rəsm və 137 əl işi çıxarılmışdır. Bundan başqa, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində keçirilən xalq yaradıcılığı sərgisində bu kateqoriyadan olan şəxslərin 53 əl işinin satışı təşkil edilmişdir. Ötən illər ərzində "Ənənəni qoruyaq, evdə xalça toxuyaq" adlı sosial layihə çərçivəsində xüsusi qayğıya ehtiyacı olan 27 şəxslə müqavilə bağlanmış, onlar zəruri ləvazimatlarla təmin olunmuşlar. Sağlamlıq imkanları məhdud qadınların müvəqqəti məşğulluqlarını təmin etmək məqsədilə müvafiq kateqoriyalı 34 nəfərlə müqavilə bağlanmış, 5 min 466 cüt yun corab və 640 şərf toxunaraq hərbi hissələrə təhvil verilmişdir.

Müvafiq kateqoriyadan olan şəxslərin sosial reabilitasiyası məqsədilə 161 sağlamlıq imkanları məhdud, 2 cəzaçəkmə müəssisəsindən azad olunan şəxslər və hərbi xidmətdən tərxis olunan 20 nəfər peşə kurslarına cəlb edilmiş, bu dövrdə ünvanlı dövlət sosial yardımı almaq üçün şəhər və rayon Əhalinin Sosial Müdafiəsi mərkəzlərinə müraciət edən aztəminatlı ailələrin əmək qabiliyyətli 324 üzvü münasib işlə təmin olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi xalq tətbiqi sənəti növləri üzrə qadınlar arasında özünüməşğulluğun inkişaf etdirilməsi, onların sosial vəziyyətlərinin yaxşılaşdırılması istiqamətində mütəmadi tədbirlər keçirmişdir. Bu məqsədlə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində fəaliyyət göstərən qadınların əl işləri mağazasında, Naxçıvan şəhərində yerləşən Tədris-Ticarət Mərkəzinin əl işləri mağazasında və Novruz bayramı münasibətilə təşkil olunan sərgi-satışda 51 istedadlı qadının 305 rəsm və əl işinin satışı təşkil edilmişdir. Naxçıvan şəhərində yerləşən Gənclər Mərkəzində "Naxçıvan Muxtar Respublikası – 90" mövzusunda istedadlı qadınların rəsm və əl işlərinin sərgi-satışı keçirilmiş, 157 qadının 343 rəsm və əl işi nümayiş olunmuşdur. Heydər Əliyev Sarayında "Muxtar respublika qadınları müstəqillik illərində" mövzusunda təşkil olunan sərgi-satışda isə 126 qadının 753 rəsm və əl işi nümayiş etdirilmişdir. İstedadlı və bacarıqlı qadınlar ötən il "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində keçirilən xalq yaradıcılığı sərgisində də fəal iştirak etmiş, 123 qadının 672 əl işi sərgilənmişdir.

Penitensiar Xidmətin Cəzaçəkmə Müəssisəsində məhkumların məşğulluğunun təmin olunması vacib məsələdir. Dövlət proqramına uyğun olaraq, müəssisənin təlim-tədris bölməsinin maddi-texniki bazası gücləndirilmiş, 5 kompüter dəsti alınaraq məhkumların istifadəsinə verilmişdir. 2014-2015-ci illərdə 49 məhkum misgər, kompüter istifadəçisi, ağac üzərində oyma və qazanxana maşinisti peşələri üzrə təşkil edilmiş kurslara cəlb edilmiş, onların hazırladıqları 83 rəsm və əl işinin sərgi və satışı təşkil edilmişdir. Bu sahədə işlərin daha səmərəli təşkili, peşə kurslarının fəaliyyətinin təmin olunması məqsədilə Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində yeni istehsalat binası tikilir.

Ötən dövrdə işçilərin əmək hüquqlarının təmin edilməsi məqsədilə qeyri-formal məşğulluğun qarşısının alınması, işəgötürülən şəxslərlə əmək müqavilələrinin bağlanması və əməkhaqlarının reallığı əks etdirməsinə də nəzarət gücləndirilmişdir. Naxçıvan Regional Peşə Tədris Mərkəzində əməyin mühafizəsi və əmək münasibətlərinin tənzimlənməsi üzrə mütəxəssislərin biliklərinin artırılması məqsədilə təşkil olunan kurslar bu sahədə görülən işlərin tərkib hissəsi kimi mühüm rol oynamışdır. Bunun nəticəsidir ki, 2014-2015-ci illər ərzində 712 sahibkarlıq obyektində 520 yeni əmək müqaviləsi bağlanmış, 1495 əmək müqaviləsində əməkhaqların real göstərilməsinə nail olunmuşdur. Əmək müqaviləsinin bağlanmamasına görə 3 fiziki şəxsə 3 min manat məbləğində cərimə tətbiq olunmuş, fərdi və kollektiv mühafizə vasitələrindən istifadə edilməməsi səbəbindən 217 işçi tikinti sahəsindən uzaqlaşdırılmış, 484 işçi həmin vasitələrlə yerində təmin edilmişdir. Aşkar olunan nöqsanların aradan qaldırılması məqsədilə 47 halda icrası məcburi olan göstəriş verilmiş, əməyin mühafizəsi üzrə tələblərin pozulmasına görə 12 vəzifəli şəxsə 12 min 200 manat məbləğində cərimə tətbiq edilmişdir. Ötən illər ərzində 949 müəssisədə istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə-əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta müqavilələrinin bağlanmasına nail olunmuşdur.

Muxtar respublikada əməkçi miqrantların çalışdıqları iş yerlərində müvafiq statusa və fərdi icazələrə malik olmalarına və onların əmək fəaliyyətlərinin qanuniliyinə ciddi nəzarət edilir. 2014-2015-ci illərdə Dövlət Miqrasiya Xidməti tərəfindən muxtar respublika ərazisində fəaliyyət göstərən tikinti, emal və digər sahələrdə çalışan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin iş icazələrinə malik olmaları, habelə iş icazələrində nəzərdə tutulmuş vəzifələr üzrə işləmələri, iş icazələrinin qüvvədəolma qaydaları nəzarətdə saxlanılmış, qanunsuz əmək fəaliyyəti ilə məşğul olan 21 əcnəbi aşkar edilərək onlar haqqında Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq inzibati tənbeh tədbirləri tətbiq edilmiş, işəgötürənlər əmək miqrasiyası sahəsində maarifləndirilmişdir.

İşaxtaranlara əmək bazarının tələblərinə uyğun təşkil olunan peşə kursları, ictimai işlər, habelə vakansiyalar barədə məlumatların çatdırılması bu gün qarşıda duran əsas məşğulluq tədbirlərindəndir. Dövlət Məşğulluq Xidmətinin ***(www.isaxtar.nmr.az)*** internet saytının hazırlanması bu mənada, mühüm əhəmiyyətə malik olmuşdur. Həmçinin bu sahədə müvafiq stimullaşdırıcı tədbirlər də görülmüşdür. Belə ki, 2015-ci ilin yanvar ayında işəgötürənlərin həvəsləndirilməsi məqsədilə "Ən fəal işəgötürən" nominasiyası üzrə müsabiqə təşkil edilmiş və qaliblər mükafatlandırılmışlar.

***"2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası muxtar respublikada işaxtaranların səmərəli məşğulluğunun təmin edilməsinə və peşə hazırlığının əmək bazarının tələblərinə uyğunlaşdırılmasına əsaslı zəmin yaratmışdır.***

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# *Şərq hamamı* Naxçıvanın milli ənənələrə sadiqliyinin göstəricisidir



***Tarixin istənilən dövründə şəhərlər böyük və ya kiçikliyindən daha çox öz ənənələri ilə seçiliblər. Hansı ki bu ənənələrdə həmin şəhərlərin dəyərləri, tarixi və mədəni inkişaf yolu, iqtisadi və sosial həyat tərzi öz əksini tapır. Ümumilikdə isə şəhər mədəniyyəti aid olduğu xalqın zəngin dəyərlərə malikliyinin bir regionun simasında təcəssümüdür. Bu mənada, Naxçıvan şəhəri həm qədim tarixi və mədəniyyəti, həm də öz milli dəyərlərinə sadiqliyi baxımından seçilir. Naxçıvanın özünəməxsusluğu ondadır ki, şəhərin istənilən yerindən həm tarixi, həm də müasir tikililəri gözlə izləmək mümkündür. Yəni şəhərdə qədimliklə müasirlik vəhdət təşkil edir.***

Muxtar respublikamızın paytaxt şəhərində son illərdə müasir tikililərin sayı artsa da, milli özünəməxsusluq qorunub saxlanılır. Hamımıza məlumdur ki, Şərq şəhərlərini dünyanın digər şəhərlərindən fərqləndirən əsas tikililər minarəli məscidlər, hamamlar və bazarlardır. Buna görə də istənilən şəhərin yuxarıdan çəkilən fotoşəklinə baxsaq, onun Şərqə və yaxud Qərbə aid olduğunu müəyyən etmək mümkündür. Ötən ilin sonlarında yeni Şərq hamamının istifadəyə verilməsi də Naxçıvan şəhərinin Şərq özünəməxsusluğundakı yerini tamlığı ilə doldurmaqla yanaşı, qədim diyarımızın milli ənənələrə sadiqliyini də bir daha göstərmiş oldu.

Qeyd edək ki, hamam həmişə insanlar üçün rahatlıq, təmizlik, sağlamlıq məkanı sayılıb. Eyni zamanda hamam həm də bir mədəniyyətdir. Bu mədəniyyətin tarixi isə çox-çox qədimlərdən başlayır. Dünyada ilk hamamın harada yaradıldığı barədə dəqiq və konkret məlumat olmasa da, araşdırmalar bu ideyanın Şərqə mənsub olduğunu göstərir. Bəzi tarixi mənbələrə görə, hamam mədəniyyəti qədim şumerlərdən başlayıb. Şərqdə yaradılan ilk hamamlar sonralar təkcə təmizlik məkanı kimi yox, həm də mədəni, ictimai, sağlamlıq məqsədilə istifadə olunub. Orta əsrlər dövründən başlayaraq ictimai hamamlar Şərq aləmində daha böyük rol oynayıb. Sanitar və gigiyenik funksiyalarıyla yanaşı, Azərbaycan hamamları məhəllə sakinlərinin toplaşıb yeni xəbərləri müzakirə etdikləri, boş vaxtlarını keçirdikləri məkanlar idi. Tarixi mənbələrə görə, həmin dövrlər Avropa tarixinin ən zülmət çağları olub. Fransada kilsələr çimməyi qadağan edir, insanlar, sadəcə, ehtiyac olanda əl və üzlərini yuyurdular. Digər Qərb ölkələrində də vəziyyət bu cür idi. Həmin dövrlərdə Avropanın əksinə olaraq, Şərqdə gözəl memarlıq incilərindən olan və bu günümüzədək gəlib çatan möhtəşəm hamamlar tikilirdi. XVII əsrdə Naxçıvanda olmuş məşhur türk səyyahı Övliya Çələbi yazırdı: “Şəhərdə məscid və ibadət yerlərinin sayı 70-ə çatır, 40 məhəllə məscidi, 20 qonaq evi, 7 hamam, 1000 dükan var”. Səyyah hər gün hovuzuna bir səbət qızılgül ləçəyi atılan yerli hamamların gözəlliyindən də bəhs etməyi unutmayıb.

Azərbaycan tarixində hamamların özünəməxsus yeri var. Xalqımız hamamı həmişə mədəniyyət məkanı, sanitar və gigiyenik baxımdan təmizliyə qovuşmaq yeri hesab edib. Xatırladaq ki, muxtar respublikamızın müxtəlif bölgələrində dövrümüzədək gəlib çatmış xeyli sayda hamamlar var ki, bu tikililər Naxçıvanda zəngin hamam mədəniyyətinin mövcudluğundan xəbər verir. Məsələn, Naxçıvan şəhərindəki Dədə Qorqud mey-



danında yerləşən XVIII əsrə aid İsmayılxan hamamı, Şərur rayonunun Yengicə kəndində yerləşən Yengicə hamamı, Kəngərli rayonunun Şahtaxtı kəndindəki hamam, habelə Ordubad rayonu ərazisində yerləşən Vənənd, Nüsnüs, Yuxarı Əylis, Düylün və digər kəndlərdəki hamamlar tarixi-memarlıq, eləcə də mədəni abidə kimi mühüm əhəmiyyət kəsb edir. Ötən ilin sonlarında Naxçıvan şəhərinin “Əlincə” məhəlləsində Şərq hamamının istifadəyə verilməsini də bu baxımdan milli ənənələrə bağlılığın növbəti nümunəsi kimi qiymətləndirmək olar. Oxucularımıza bir daha xatırladaq ki, Şərq memarlığı üslubunda layihələndirilmiş Şərq hamamı Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə təsdiq olunmuş “2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram”a uyğun olaraq inşa edilib. Ali Məclisin Sədri hamam kompleksinin açılış mərasimindəki çıxışında demişdir: ***“Bu gün muxtar respublikanın bütün yaşayış məntəqələrində dayanıqlı qaz, elektrik və su təminatı vardır. Hər bir ailə öz mənzilində lazımi məişət şəraiti yaratmışdır. Lakin Naxçıvanın paytaxt şəhəri olması və burada 10 minə yaxın tələbənin təhsil alması yeni mədəni xidmət obyektinin – hamam kompleksinin tikintisini zəruri edirdi. Yeni hamam kompleksi əhaliyə xidmət göstərməklə yanaşı, həm də memarlıq abidəsi kimi inşa olunmalı, Şərq adət-ənənələri və üslubu qorunub saxlanılmalı idi. Tikinti işləri aparılarkən bu amillər nəzərə alınmış, qədim Şərq adət-ənənələri və üslubuna uyğun yeni hamam kompleksi inşa olunmuşdur”.***

Bu günlərdə biz də adıçəkilən obyektdə olduq. Həqiqətən, Şərq hamamı özünəməxsus quruluşu ilə diqqəti cəlb edir. Hamam kompleksinin müdiri Arzu Əhmədov bizimlə söhbətində bildirdi ki, bura gələnlərin rahatlığı üçün hər şey nəzərə alınıb. Kompleksin daxilində kişi və qadınlar üçün nəzərdə tutulmuş bölmələr mövcuddur. Hər bir bölmədə soyunub-geyinmə otaqları, yuyunmaq üçün böyük zal və duş kabinələri, hamam ləvazimatlarının satışı mağazası və çay evi fəaliyyət göstərir. Həmsöhbətimiz bildirdi ki, yeni fəaliyyətə başlamasına baxmayaraq, müraciət edənlərin sayı hər gün artmaqdadır. Gün ərzində xidmətlərlə maraqlananlar da az olmur. Kompleksin həyətində avtomobil dayanacağı mövcuddur ki, bu da sakinlərin rahatlığı üçün düşünülüb.

Burada olarkən kompleksin xidmətlərindən istifadə etmək istəyən şəhər sakinlərindən bir neçəsi ilə görüşüb söhbət etdik. Nofəl Əliyev deyir ki, evdə hər birimizin məişət şəraiti olsa da, buradakı rahatlığın yerini vermir. Yaxınlıqda yaşadığım üçün binanın tikintisinin tezliklə başa çatmasını və fəaliyyətə başlamasını maraqla gözləyirdim. Çünki bu tipli hamamlarla əvvəlcədən tanışlığım var idi. Buradakı Şərq özünəməxsusluğu, döşəmə daşların müasir texnoloji üsullarla isidilməsi, sözün həqiqi mənasında, insanı ruhən dincəldir. Xidmət də yüksək səviyyədədir. Hamamdan sonra çayın isə öz yeri var. Həqiqətən, insan burada əsl rahatlıq tapır.

Naxçıvan Dövlət Universitetinin tələbəsi Musa Musayev yeni hamamın rahatlığından ağızdolusu danışır. Deyir ki, qışda əsl rahatlığı məhz Şərq hamamında tapmaq olar. Həm gəlib hamamdan istifadə edirsən, həm də dost-tanışla çay içib söhbətləşirsən. Bu işdə əməyi olan hər kəsə minnətdarlığımı bildirirəm.

*Bəli, Şərq hamamının istifadəyə verilməsi şəhər sakini kimi hər birimizi sevindirir. Eyni zamanda nəzərə alaq ki, bu tip obyektlər şəhərimizin turizm potensialı baxımından da çox əhəmiyyətlidir. Xüsusilə əcnəbi turistlərin bu cür Şərq hamamlarına böyük maraqları olduğunu dəfələrlə şahidi olmuşam. Ona görə də belə bir obyektin fəaliyyətə başlamasının istər şəhər sakinlərinin, istərsə də bura yolu düşən yerli və əcnəbi qonaqların mədəni istirahətində əhəmiyyətli rol oynayacağı şübhəsizdir.*

**Səbuhi HƏSƏNOV**

***Azərbaycanın qədim diyarı Naxçıvan memarlıq, incəsənət məktəbləri, köklü təhsil ənənələri ilə yanaşı, xalçaçılıq sənəti ilə də dünyada tanınıb. Bu gözəl və füsunkar təbiətli yurdumuzda vaxtilə evlərdə palaz, kilim, sumax, vərni, şəddə, zilli və cecim kimi xalça növləri toxunub, xalçatoxuma sənəti inkişaf etdirilib.***

*Milli dəyərlərimiz*

# Xalçaçılıq sənətinin inciləri: *Naxçıvan xalçaları*

Muxtar respublikada aparılan arxeoloji tədqiqatlar nəticəsində xalça toxunuşunda istifadə olunan ibtidai gil cəhrələr və sümükdən hazırlanmış iy ucları kimi materialların əldə edilməsi Naxçıvanın Azərbaycanın ən qədim toxuculuq mərkəzlərindən biri olduğunu sübuta yetirir. Orta əsr ərəb müəllifləri də Naxçıvanda xalçaçılığın geniş vüsət alması və bu ərazidə toxunan xalçaların şöhrət qazanması barədə öz əlyazmalarında dəyərli məlumatlar veriblər.

Azərbaycan xalça sənətini öz ənənəvi naxışları və elementləri, özünəməxsus şux rəng çaları ilə zənginləşdirən Naxçıvan xalçaları bu gün də dəyərini saxlamaqdadır. Naxçıvanın Şərur, Şahbuz, Ordubad, Culfa bölgələrində daha geniş yayılan xalça sənəti xalq yaradıcılığı növlərindən biri kimi diqqəti cəlb edir.

Muxtar respublikada xalq yaradıcılığının inkişaf etdirilməsinə daim xüsusi əhəmiyyət verilir. “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2009-cu il fevralın 7-də imzaladığı Sərəncamdan sonra Naxçıvanda bu sənətin yaşadılması istiqamətində xeyli iş görülüb. Naxçıvan şəhərində Dövlət Xalça Muzeyi üçün yeni binanın istifadəyə verilməsi də maddi-mənəvi irsin qorunub saxlanılmasına göstərilən dövlət qayğısının parlaq təzahürüdür.

Belə tədbirlər muxtar respublikanın rayonlarında da davam etdirilir. Belə ki, 2011-ci il yanvar ayının 14-də Ordubad şəhərində öz dövrünün tanınmış siması, xeyriyyəçi Mənsur ağa Kəngərlinin əsaslı surətdə təmir-bərpa edilmiş XIX əsr abidəsi olan mülkünün bir hissəsində xalçaçılıq sexi yaradılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri həmin xalçaçılıq sexində olub, milli naxışlardan istifadə edilərək hədiyyəlik xalçaların toxunmasını, muxtar respublikamızda fəaliyyət göstərən xalçaçılıq sexləri ilə təcrübə mübadiləsi aparılmasını tövsiyə edib. Xalça toxunması işi ilə 1993-cü ildən məşğul olan bu müəssisə fəaliyyətini daha da genişləndirib. Məlumat üçün bildirək ki, onlarla ordubadlı xalçaçı məhz bu istehsalat sahəsində işləyərək yetişib.

Toxunan xalçalarda təbiətimizi və tariximizi əks etdirən yerli xüsusiyyətlərə uyğun şəbəkə və naxışlardan istifadə edilir. Naxçıvana aid milli ornamentlərin, qədim abidələrin, təbiət mənzərələrinin əks olunduğu kiçikhəcmli hədiyyəlik xalçalar toxunmasına üstünlük verilir. Xalçaların eskizləri isə tanınmış şəbəkə ustası Cabir Cabbarov tərəfindən hazırlanıb.

Cabir Cabbarov deyir ki, əslində, o, ağac üzərində oyma sənəti ilə məşğul olur. Naxçıvanda, eləcə də Ordubadda orta əsrlərdə mövcud olmuş misgərlik, dulusçuluq, şəbəkəçilik, kaşıçılıq və memarlıq sahələrində istifadə edilmiş ornament və naxışları toplayaraq onlardan yararlanır. Xalçaçılıqda da bu ornamentlər tətbiq edildiyindən eskiz çəkmək və çeşni yaratmaq təklifini qəbul edib. Ebru sənətinin xüsusiyyətlərindən xalça eskizlərinə tətbiq edib və yeni kompozisiyalar ortaya çıxıb. Hazırlanan eskizlərdə memar Əcəminin sənət əsərlərinə aid 5 nümunədən, Naxçıvan şəhərindəki Möminə xatın və Yusif Küseyiroğlu türbələrində işlədilən həndəsi naxışlardan, eləcə də Kəngərli rayonu ərazisindəki Qarabağlar, Culfa rayonundakı Gülüstan türbələri bəzəyən naxışlardan, Ordubad ərazisindəki 10 abidənin ornamentlərindən istifadə olunub. Xalçanın “göl” deyilən mərkəzi hissəsində həmin abidələrin görünüşü əks etdirilir.

Qeyd etdiyimiz kimi, xalçaçılıq sənəti Şahbuz rayonunda da yaşadılır. Şahbuz xalçalarını bəzəyən əsas elementlərdən şaquli istiqamətli zolaqlar, romblar, qarmaqlı həndəsi elementlər və nəbati ornamentlər, heyvan təsvirləri kimi naxışlar xalqın genetik yaddaşından silinməyən inanc və təsəvvürlərlə bağlıdır. Bu naxışlar sistemi semantika müxtəlifliyindən asılı olmayaraq, bir məkan üzərində real şəkildə ənənəvi üslubda yerləşdirilərək xalçaya ritmik və dinamik ahəngdarlıq verir.

Naxçıvan xalçaları içərisində öz spesifik toxunuşu və bədii quruluşu ilə seçilən xovsuz xalça növü olan şəddə süjet semantikası baxımından çox maraqlıdır. Rayonun Kolanı, Aşağı və Yuxarı Qışlaq, Biçənək, Qızıl Qışlaq və Güney Qışlaq yaşayış məntəqələrində xalça ustalarının yaratdıqları xalça nümunələri ən qiymətli sərvət kimi qorunub saxlanılır. Bir vaxtlar Teymur Rüstəmovun, Zəlbab Mədətovanın, Şükufə Lazımovanın, Aruzə Seyidovanın və başqalarının toxuduqları xalçalar işlənmə texnikası, ilmə çeşidləri, rəng çaları ilə seçilir.



Naxçıvan xalçalarının sorağı bu gün bir sıra ölkələrdən gəlir. Amerika Birləşmiş Ştatlarında yaşayan müstəqil jurnalist və tədqiqatçı Peter Tasenin Naxçıvan Muxtar Respublikasının bugünkü sosial-iqtisadi yüksəlişi, qədim tarixi, mühüm tarixi-mədəni abidələri barədə yazdığı və “Foreign Policy News”, “Eurasia Review”, “Eurasia Hoy”, Litvada nəşr olunan “Slaptai” qəzetlərində, İspaniyanın “Diario Siglo XXI” portalında, Bosniya-Hersoqovinanın “Diogen pro” jurnalında işıq üzü görən məqalələrində Naxçıvan xalçalarının heyranedici gözəlliyi xüsusi vurğulanıb. Peter Tase Naxçıvanda yerli rəssamların xalça kompozisiyaları hazırlayarkən simmetriyanın aliliyinə xüsusi nəzər yetirdiklərini qeyd edib. O, qədim dövrlərdən bəri xalçanın üzərində olan heyrətamiz naxışların sənətkarların diqqət mərkəzində olduğunu vurğulayıb. Müəllif yazır: “Naxçıvan xalçaları XIV əsrdə daha da məşhurlaşıb. XVI-XVII əsrlərdə isə ticarət və memarlıq ilə yanaşı, xalçaçılıq regionda əsas gəlir mənbəyi kimi inkişaf edib. Orta əsrlərin sonlarında özünəməxsus toxuculuq üsullarının tətbiq olunduğu şəhərlər mövcud idi. Təbriz və Ərdəbil şəhərlərini buna misal göstərmək olar. Lakin yüksəkkeyfiyyətli xalça yunu və ipək saplarının istehsalında Naxçıvan diqqət mərkəzində olub və bu amil bir çox elementlərin mürəkkəb bədii kompozisiyalarının yaranmasına şərait yaradıb”.

Bu gün Naxçıvanda gənc nəslin xalçaçılıq sənətinə olan marağının artırılması üçün müxtəlif tədbirlər görülür. Çünki gənclərimiz xalqımızın qədim və zəngin sənət növlərindən olan xalçaçılıq sənətini yaşadıb gələcək nəsillərə ötürə biləcək yeganə qüvvədir. Xalça sənətinin bitib-tükənməyən zənginliyi isə sənətlə maraqlanan hər bir gəncimizi bu zənginliyi öyrənməyə, onu daha da rəngarəng etməyə sövq edir. Bu gün muxtar respublikada xalçaçılığın inkişafı ilə bağlı həyata keçirilən tədbirləri göz önünə gətirsək, Naxçıvanda milli dəyərlərimizə ehtiram və məhəbbətin həmişə yüksək səviyyədə olduğunu görərik.

**Rauf ƏLİYEV**

# Naxçıvanın qış lövhələri



Bu barədə düşünək

## Niyə belə edirik?

*(felyeton)*

***Ötən günlərdən birində əvvəllər mənimlə qonşu olmuş Qulamla redaksiyanın qənşərində qarşılaşıb hal-əhval tutdum, gəldən-getdən danışdım. Onu da deyim ki, qonşum söhbətcil adamdır, hər dəfə qarşılaşanda başına gələn əhvalatları elə gözəl, elə incəliklərinə qədər nəql edir ki, nə qədər təcili işin olsa da, onu dinləməyə bilmirsən. Sonuncu əhvalatın oxucular üçün də maraqlı olacağını düşünüb onu qələmə almağı qərara aldım. Əlqərəz, başlayırıq Qulamın yaşadığı binanın həyətindən...***

– Ay bala, zibili niyə yolun ortasına qoyub gedirsən?

– Ay dayı, sənə nə? Özüm bilərəm, hara atıram.

– Axı sən zibili atdığın yerdə elə öz uşaqların oynayır.

– Heç bir şey olmaz, bir azdan təmizlik işçiləri gəlib yığışdıracaqlar.

– Olmaz ki, sən zibilini beş addımlığındakı qutulara atasan, onların yığışdırmasına da ehtiyac qalmasın?

– Olar, niyə olmur, ancaq tələsirəm. Gələn dəfə sən dediyin kimi eləyərəm, ürəyini sıxma.

Bayaqdan binanın eyvanından boylanıb zibili küçənin ortasına qoyan Höccətəlini başa salmağa çalışan İsmayıl kişinin səsi daha boğuq çıxmağa başlayıb:

– Səni başa salınca, adamın başı xarab olar. Sənə daha sözüm yoxdu.

– Daha nə sözün olacaq ki, səhər-səhər mənə dişindən çıxanı dedin. Qoy mən də sənin haqda düşündüklərimi nəql edim, ürəyimdə qalmasın. Sən öz deyingənliyinlə bütün qonşuları boğaza yığmısan. Gah binanın həyətində oturan qadınların tumun qabıqlarını yerə səpələdikləri üçün deyinirsən, gah uşaqlara söylənirsən ki, həyətdəki gül kollarının budaqlarını qırmasınlar. Məhəllədə bir sürücü də səndən razılıq eləmir. Binanın girişində avtomobil saxlayan kimi eyvanda müntəzir dayanırsan, çığır-bağır salırsan ki, yolu kəsməsinlər. Yekə kişisən, bir qəpiklik qazancın yoxdu, ancaq məhəllədə hamı ilə düşmən olmusan, get otur evində, hamı necə, sən də elə.

İsmayıl kişinin bu sözlərdən sonra matı-qutu quruyub. Nə deyəcəyini bilməyib. Höccətəli isə ona dediyi sözlərdən sonra bir ayağını qaçaraq qoyub. Ancaq İsmayıl dayı sakitcə ondan "Doğrudan, hamı belə düşünür?" – deyə soruşub. Əslində, Höccətəli bütün bina əhlinin adından yalandan danışıb. Ancaq çox gec olub, "yalan deyirdim" deməyə dili gəlməyib, "hə, hamı belə düşünür" deyərək oradan uzaqlaşıb.

Keçmiş qonşum Qulam deyir ki, şahidi olduğu bu hadisənin üzərindən uzun müddət keçib. Artıq nə həyətdən İsmayıl kişinin səsi gəlib, nə də Höccətəlinin hənirtisi. Elə bil İsmayıl kişi hamıdan küsüb, evinə qapanıb. Qulam onu görmək, Höccətəlinin onun haqqında dediklərinin yalan olduğunu demək istəyib. Ancaq bu görüş uzun müddət ona müyəssər olmayıb. Bütün bu müddətdə özünə təsəlli verərək düşünüb ki, İsmayıl kişi xasiyyətdə bir adam Höccətəlinin sözü ilə xeyirxah əməllərindən əl çəkməz.

...Şaxtalı, sazaqlı qış qapını kəsib. İki-üç gün aramsız qar yağıb, gecənin ayazı gündüz əriyən qarı buza döndərib. Elə həmin gün Qulam İsmayıl kişini yenə əlində bel binanın girişini təmizləyən görüb. Ona yaxınlaşıb salam verib, yayda olan söhbəti yada salmadan əlindən beli alıb dinməz-söyləməz yolu təmizləməyə başlayıb. Arada əl saxlayıb ona məhəllənin təmizliyinin, səliqə-sahmanının qayğısına qalmaqla çox savab iş gördüyünü, başqalarına nümunə olduğunu deyib. O isə uşaqlıq illərindən yadında saxladığı bir hadisəni danışıb:

– Yaxşı yadımdadır, o vaxtlar bu küçədəki binaların yerində bir-birinin böyrünə sığınmış möhrə evlər, dar döngələr vardı. Qapımızdan bir az aşağıdan su xətti çəkilmişdi. Bəzən nabələd adamlar qaranlıqda küçəmizdən keçəndə başlarını bu boruya vurub zədələyirdilər. Bir gün qaranlıq düşəndə yaşlı bir adamın başına eyni hadisənin gəldiyini müşahidə etdim. Ancaq həmin adam başqaları kimi çıxıb getmədi, bir az gözləyib arxadan gələn bir neçə nəfərə də xəbərdarlıq etdi, sonra yola düzəldi. Elə həmin günün səhəri gəlib xəttin yerini dəyişdirdilər və bununla da, nabələd yolçuların canı bu bəladan qurtardı. O insan nəcib bir hərəkət edərək başına gələn qəza ilə başqalarının da üzləşməsini istəməmişdi. Bax onda mən anladım ki, ətrafda baş verənlərə həssas olmaq nə deməkdir. Yəni sən tək özünü yox, kənardakıları da düşünməlisən. Çəkilən əməyi, zəhməti qiymətləndirməli, bu əməyə hörmətlə yanaşmalısan. Bizim binamıza gəlincə, özün də görürsən ki, sakinlər üçün hər cür şərait yaradılıb, hər yer abadlaşdırılıb, ağac, gül-çiçək əkilib, skamyalar qoyulub, uşaqların əylənməsi üçün yelləncək də quraşdırılıb. Bizim özümüz üçün qura bilməyəcəyimiz şərait yaradılıb. Fəqət, nədənsə bu yaradılanları qoruyub saxlamağa tənbəllik edirik. Evimizdə bir əşyanı qırıb tökəndə, yeri zibilləyəndə övladımızı möhkəmcə tənbeh edirik. Gözümüzün qarşısında həyətdə yelləncəklər qırılanda, yerə zibil atılanda buna biganə qalırıq. Bir balaca həssaslıq göstərib bina həyətini təmiz saxlamağın vacib olduğunu deyəndə isə haray-mərəkə qalxır.

Söhbətin bu yerində əsərin dırnaqarası qəhrəmanı Höccətəli binanın girişində görünüb irişə-irişə "Yorulmayasınız, nə əziyyət çəkirsiniz, onsuz da Mənzil İstismar İdarəsinin işçiləri gəlib təmizləyəcəklər, bu işi görmək onların vəzifəsidir", – deyib Qulamgildən aralanıb. Ancaq binanın o biri girişinin qapısına çatanda sürüşüb yıxılıb. Yıxılanda alnını və burnunu, deyəsən, yerə bərk vurub, onlar yaxınlaşıb onu ayağa qaldırana qədər buz qıpqırmızı rəngə boyanıb. Ayağı da burxulub bərk zədələnib. Qulamla İsmayıl kişi Höccətəlini yaxınlıqdakı taksiyə mindirib xəstəxanaya yollayıblar. Qulam sonradan eşidib ki, Höccətəlinin ayağı sındığı üçün gipsə salıb onu evə gətiriblər. İsmayıl kişi ilə vaxt təyin edib ona baş çəkməyə gediblər. Qulam nədənsə ayaq saxlayıb pilləkənləri aram-aram adlayan İsmayıl kişidən "Niyə belə edirik?" – deyə soruşub. O isə cavabında çiyinlərini çəkib, "Bilmirəm, cavab tapsan, mənim də xəbərim olsun" deyərək səmimiyyətlə gülümsəyib.

Qulam bu əhvalatı danışdıqdan sonra mənə də eyni sualı verdi. Ancaq mən də bu sualın cavabını tapa bilmədim. Fikirləşdim ki, bu cavabı siz oxucular daha yaxşı bilərsiniz. Xahiş edirəm, deyin görək, niyə belə edirik? – əziz oxucular...

**Səbuhi HÜSEYNOV**

***Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən idman federasiyaları 2015-ci ilin yekunlarına dair iclaslar keçiriblər. Hesabat xarakteri daşıyan iclaslarda il ərzində görülən işlər, keçirilən tədbirlər, həmçinin növbəti ildə qarşıya qoyulan məqsəd və vəzifələr müzakirə olunub.***

## İdman federasiyalarında 2015-ci ilin yekunları müzakirə edilib

Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının nəzdində yunan-Roma güləşi, sərbəst güləş, sambo və cüdo bölmələri fəaliyyət göstərir. Geridə qoyduğumuz ilin yekun iclasında federasiyanın sədr müavini Faiq İsgəndərov diqqətə çatdırıb ki, bu müddət ərzində 38 idman tədbiri təşkil edilib. Bu yarışlarda 500-dən çox idmançı mübarizə aparıb və məqsəd milli idman növünü muxtar respublikada təbliğ etmək, gənclər arasında kütləvi hala gətirmək olub.

2015-ci ili Boks Federasiyası üçün də önəmli il hesab etmək olar. Yekun iclasındakı çıxışında federasiyanın sədr müavini Məmmədcəfər Əliyev boksçularımızın ötən il 23 müxtəlif idman yarışlarında çıxış etdiyini deyib. Bildirib ki, bunlardan dördü Azərbaycan birinciliyi, ikisi beynəlxalq turnir, biri "Bakı – 2015" Avropa Oyunları, biri dünya, biri Avropa birinciliyi, ikisi muxtar respublika birinciliyi, biri muxtar respublika turniri, beşi açıq birincilik, altısı yoldaşlıq görüşü olub. İl ərzində idmançılarımız 12 medal əldə ediblər ki, bunların da 4-ü qızıl, 3-ü gümüş, 5-i isə bürüncdür.

Şərq Döyüşü Sənəti Federasiyasının sədr müavini Cavanşir Salayev yekun iclasında bildirib ki, 2015-ci ildə federasiya 16 idman tədbiri təşkil edib. Geridə qoyduğumuz il həmin federasiyanın idmançıları üçün də uğurlu olub. Belə ki, idmançılarımız dünya və Avropa çempionatlarında, həmçinin beynəlxalq arenalarda medallar qazanıblar. Bunun nəticəsidir ki, federasiyanın yetirməsi İlkin Səfərov ölkə Prezidentinin fəxri diplomu ilə təltif olunub. Eyni zamanda Xəyal Abdullayev ilin idmançısı seçilib.

Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının yekun iclasında çıxış edən federasiyanın sədr müavini Hafiz Əliyev bildirib ki, geridə qoyduğumuz ildə federasiya futbol üzrə muxtar respublika çempionatı ilə yanaşı, ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə turnir təşkil edib. Həmçinin uşaq futbolunun inkişafı yönündə də bir sıra addımlar atılıb, zona birinciliyi keçirilib.

Voleybol Federasiyasının sədr müavini Aydın Mirzəyev yekun iclasdakı çıxışında diqqətə çatdırıb ki, il ərzində federasiya 10 idman tədbiri keçirib. Bunlar arasında xüsusilə muxtar respublika birinciliyi və ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev Kuboku" turniri böyük əhəmiyyət daşıyır.

Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının yetirmələri il ərzində 18 idman tədbirində iştirak ediblər. Bu barədə federasiyanın sədr müavini Emin Hacıyev yekun iclasında məlumat verib. Diqqətə çatdırılıb ki, zəka sahiblərimiz 7 dəfə ölkədaxili turnirlərdə, 5 dəfə beynəlxalq arenalarda muxtar respublikanı təmsil ediblər. Naxçıvanda keçirilən yarış və turnirlərdə isə 400-dən çox şahmatçı mübarizə aparıb.

Naxçıvan Muxtar Respublikasında fiziki imkanları məhdud insanların cəmiyyətə inteqrasiyası, sağlamlıqlarının bərpası sahəsində ardıcıl və məqsədyönlü tədbirlər 2015-ci ildə də həyata keçirilib, onlar arasında idmanın kütləviliyinə nail olunmasına çalışılıb. Bu müddət ərzində Paralimpiya Federasiyası 6 idman tədbiri keçirib və Azərbaycan Milli Paralimpiya Komitəsinin qolbol idman növü üzrə komandasının baş məşqçisi muxtar respublikaya dəvət olunub. Bu fikirləri federasiyanın sədr müavini Fuad Səfərov yekun iclasında dilə gətirib.

Naxçıvan Muxtar Respublikası Basketbol Federasiyasının yekun iclasında çıxış edən federasiyanın sədri Mahir Əliyev qeyd edib ki, 2015-ci il təmsil etdikləri qurum üçün əlamətdar hadisələrlə yadda qalıb. Belə ki, ilk dəfə olaraq kişilər arasında basketbol üzrə muxtar respublika çempionatı keçirilib. Ümumilikdə isə il ərzində federasiya tərəfindən 68 idman tədbiri reallaşdırılıb ki, bu yarış və turnirlərdə 1000-dən çox idmançı çıxış edib.

Yüngül Atletika Federasiyasının yekun iclasında qeyd edilib ki, ötən il federasiya, ümumilikdə, 35 yarış keçirib. Bu yarışlarda 3361 uşaq, yeniyetmə, gənc qız və oğlan atlet qüvvəsini sınayıb. Hazırda federasiyanın tərkibində 18 yaşadək 203 qız, 18 yaşdan yuxarı 59 qız, 28 yaşadək 262 oğlan və 18 yaşdan yuxarı 140 oğlan bu idman növü ilə məşğul olur. Keçirilən bu tədbirlər barədə federasiyanın sədr müavini İntiqam Əliyev məlumat verib.

Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının sədr müavini Nəriman Quliyevin sözlərinə görə, geridə qoyduğumuz ildə federasiyanın bəzi yetirmələri dünya çempionu adını qazanmaqla yanaşı, həm də ölkə birinciliklərində uğurla çıxış ediblər. Muxtar respublikada isə 6 idman tədbiri keçirilib ki, bu yarışlarda 500-ə yaxın idmançı mübarizə aparıb.

Naxçıvan Muxtar Respublikası Hava və Ekstremal İdman Növləri və Atıcılıq federasiyaları digər federasiyalar kimi, yekun iclaslarında federasiyanın il ərzində gördüyü işlərlə bərabər, 2016-cı il üçün tədbirlər planlarını da müzakirə ediblər.

**Ceyhun MƏMMƏDOV**


### Azərbaycan Respublikası Təhsil Nazirliyi

*Naxçıvan Müəllimlər İnstitutu kafedralarda boş olan vəzifələri tutmaq üçün müsabiqə elan edir*

1. Dillər və ədəbiyyat kafedrası – dosent – 2 yer, filologiya üzrə fəlsəfə doktoru – 2 ştat

2. Riyaziyyat və tədrisi metodikası kafedrası – baş müəllim – 1 yer, pedaqogika üzrə fəlsəfə doktoru – 1 ştat

Müsabiqə üçün sənədlər bu elan qəzetdə dərc edildiyi gündən bir ay müddətində müvafiq qaydada qəbul olunur.

***Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 1,***
***Naxçıvan Müəllimlər İnstitutu***
***Telefon: (036) 545-32-02***
***Rektorluq***

***İtmişdir***

Naxçıvan şəhəri, "İstiqlal" küçəsi, bina 127, mənzil 25-də yaşamış Novruzov Muxtər Qulu oğlunun adına olan 7225 inventar nömrəli texniki pasport və 03/202 nömrəli qeydiyyat vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhər 1 saylı Mənzil İstismar İdarəsinin 018851-dən 018900-dək mədaxil qəbzi itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Sara Əzimova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 15